# Yapon poeziyası



Yosa Buson

Yesa Buson hayku ustadı kimi məşhurdur. Busonun həyatı, xüsusilə də onun gənclik dövrü haqqında məlumat azdır. O, 1716-cı ildə Osaka yaxınlığındakı Kema kəndində anadan olmuşdur. Ailəsi kifayət qədər varlı yaşayırdı. Atası Kemanın kəndxudası olmuşdu. Buson uşaqlıqda yaxşı təhsil almış, çin və yapon klassiklərini oxumuş və rəssamlığı öyrənmişdir. Belə təxmin edilir ki, o gənclik illərində hər iki valideynini itirmiş və 17-19 yaşında Edoya (indiki Tokio) getmişdir. Tədqiqatçılar həyatının son illərini Kiotoda keçirən şairin doğma kəndə qayıtmamasını onun həyatının bu günə qədər açılmayan daha bir sirri hesab edirlər. Edoya gələn Buson burada o dövrün məşhur sənətkarlarından poeziya və rəssamlığı öyrənir. 1742-ci ildə onun poeziya və rəssamlıq müəllimi, o dövrün məşhur şairi olan Xadzin ölür. Bundan sonra Edonu tərk edən şair 10 il ərzində Yaponiyada səyahət edir. Nəhayət, 1753-cü ildə Buson Kiotaya gəlir və ömrünün sonuna qədər burda yaşayır. 45 yaşında ailə quran sənətkar rəssamlıqla dolanırdı. Buson həyatının son 13 ilini ciddi poeziyaya həsr edir və ən yaxşı şeirlərini bu dövrdə yazır. 25 dekabr 1783-cü ildə həyatdan köçən şair özündən sonra böyük irs qoymuşdur.

**Çərpələng yüksəklikdə...**

Çərpələng yüksəklikdə...
Hələ dünən yellənirdi
Həmin yerdə ayrısı.

**Dağda sərhəd məntəqəsində**

Dağda sərhəd məntəqəsində
Balaca manqal.
Yaz soyuğunda.

**Xarici qonaqlar üçün salon**

Xarici qonaqlar üçün salon
Sürmə ətri saçır...
Ağ gavalı çiçəkləri.

**Qırışmış əldə**

Qırışmış əldə
Çiçəkləyən gavalı budağının
Qəmli rayihəsi.

**Sakit yaz yağışı.**

Sakit yaz yağışı.
Balıqqulaqlarını dayazlıqda
Güclə islatdı.

**Bülbül oxuyur**

Bülbül oxuyur
O elə geniş açıb
Balaca dimdiyini!

**Bu söyüddən**

Bu söyüddən
Başlayır axşam toranı.
Və çöl yolu.

**Ay tüstü arasında...**

Ay tüstü arasında...
Qurbağa gölməçəsi bulandı.
Su harda? Göy hardadır?

**Ayın işığı qərbə doğru**

Ayın işığı qərbə doğru
Çiçəklərin kölgəsi
Şərqə gedir.

**Uzun yaz günləri**

Uzun yaz günləri
Bir-birini əvəz edir... Yenə
Keçmiş günləri yaşayıram.

**Təzə torpaq kəsəkləri**

Təzə torpaq kəsəkləri.
Çöl ilbizlərinin üstünə
Laqeyd yağış tökülür.

**Köpək bərkdən hürür**

Köpək bərkdən hürür
Gələn tacirə.
Şaftalılar çiçəkləyib.

**Gecə qaranquş səsi.**

Gecə qaranquş səsi.
Camaat ilanı döyüb qovur...
Kənd daxması.

**Qanadları ilə xışıldadaraq**

Qanadları ilə xışıldadaraq
Qızıl qəsrdən
Qaranquş uçur.

**Kəndli toxayla döyür...**

Kəndli toxayla döyür...
Meşə arxasında məbəddə
Ağır-ağır zəng çalır.

**Torağay səhər-səhər.**

Torağay səhər-səhər.
Zireh altından
Samuray baxır.

**Qaz qatarı uçur.**

Qaz qatarı uçur.
Hər bir düyü tarlasında
Ayın üzü tutulur.

**Yaz yağışı yağır**

Yaz yağışı yağır!
Yolda söhbətləşir
Çətir və plaş.

**Od sıçradı çaxmaq daşından**

Od sıçradı çaxmaq daşından,
Birdən quyunun dibindən
Qurbağalar hay verdilər.

**Gənc əyanların**

Gənc əyanların
Başına dolanır tülkü...
Yaz axşamı.

**Fındıqburun gəlincik...**

Fındıqburun gəlincik...
Yəqin körpə vaxtı anası onun
Burnundan az dartıb!

**Qutudan çıxdılar...**

Qutudan çıxdılar...
Heç sifətinizi unudarammı?
Bir cüt bayram gəlinciyi.

**Yazda dəniz**

Yazda dəniz
Bütün gün ləpələnir,
Sakit ləpələnir...

**Dəniz genişliyindən,**

Dəniz genişliyindən,
İşıqlanır yaz günəşi.
Dağlarda albalı çiçəkdə!

**Yosinoda oğrular yoxdu!**

Yosino dağında oğrular yoxdu!
Çiçəkləmiş albalı budağını
Heç kim oğurlamaz.

**Yaz günləri keçdi**

Yaz günləri keçdi
Bülbülün cəh-cəhi
Eşidilləndə.

**Yaz qurtarır**

Yaz qurtarır,
Tərəddüdlə ləngiyir
Gec yetişən albalılar.

**Ağır zəng**

Ağır zəng.
Onun qırağında
Mürgü döyür kəpənək.

**Baharın sonu**

Baharın sonu.
Nə qədər ağır gəlir
Əlimə rübab!

**Qısadır yay gecəsi**

Qısadır yay gecəsi!
Tırtılların üstündə parıldadı
Sübhün şeh damlası.

**Hökmdar qılıncından gizləndilər**

Hökmdar qılıncından gizləndilər...
Şaddır gənc ər-arvad - dəyişdilər
Qış geyimini yay geyiminə.

**May leysanları uzundur**

May leysanları uzundur
Gur selin yaxınlığında
İki balaca ev.

**Gələn dalğalar**

Gələn dalğalar
Mavi vağların dizini yuyur.
Axşam mehi.

**Yaz leysanı vaxtı**

Yaz leysanı vaxtı,
Nə dəhşətli oldu,
Adsız balaca çay.

**Düz xətlə kəsdi**

Düz xətlə kəsdi
Ququnun keçən qışqırtısı
Xeya şəhərinin səmasını.

**Dağın zirvəsində**

Dağın zirvəsində,
Möhtəşəm qala ağarır
Körpə yarpaqların üstündə.

**İlanı qılıncla yıxaraq**

İlanı qılıncla yıxaraq,
Qəhrəman vadiylə gedir
Körpə yarpaq kölgəsiylə.

**Mən təpəyə qalxdım**

Mən təpəyə qalxdım,
Qüssəylə dolmuşam - nə olsun:
Orda itburnu çiçəkləyib.

**Ancaq Fudzinin zirvəsini**

Ancaq Fudzinin zirvəsini
Öz altına almadılar
Körpə yarpaqlar.

**O tərəf-bu tərəfdən**

O tərəf-bu tərəfdən
Şəlalələrin şırıltısı eşidilir
Körpə yarpaqlar arasından.

**Dan yeri söküldü**

Dan yeri söküldü.
Qarabatdaqdan qaçıb balıqlar
Dayaz suda oynayır.

**Yaxşıdı suda ləngərlə getmək**

Yaxşıdı suda ləngərlə getmək
Kiçik yay çayının içindən
Əlində üçdiş balıq yabası.

**Bənna döyür**

Bənna döyür.
Odlu qığılcımlar
Suda üzürlər.

**İki-üç ləçək**

İki-üç ləçək
Üst-üstə düşüb...
Pion fırlanır.

**Dayanmadan gedirəm**

Dayanmadan gedirəm
Dincəlib yenə gedirəm
Geniş yay çəməni ilə.

**Tərcümə etdi: İlham Qəhrəman**